# RUHUMU AĞLAR QOYDUN...

*Vəliyulla Novruzun ölümünə qəsidə-elegiya*

Ruhumu ağlar qoydun, vədəsiz getdin, ey dost!
Bildinmi, getməyinlə nə sitəm etdin, ey dost?

Könlümdə yuvan vardı, boş qoydun onu niyə?
Uçduğun göy üzündə nəğməni ötdün, ey dost!

Onsuz da ayrılıqda yanmağın ustadıyam,
Səndəmi oda tutdun, qəlbimi ütdün, ey dostun?

Sözümüzün göyündə ulduz olub axsan da,
Yaddaşlarda yaşayan iz qoydun, ötdün, ey dost!

Zəmanənin ağrısı, acısı dərd payındı,
Qismətinə "hə" deyib, "yox"ları uddun, ey dost!

Şirinlərə istəyin sırası çox uzandı,
Vətəndən acıları sən daddın, ey dost!

Sevgili insanlığın üfüqündə doğuldun,
Ay kimi işıq saldın, gün kimi batdın, ey dost!

Vədə gələr Xələfli, son görüş arzulayar,
Gəlməsən o da deyər, nə ağır yatdın, ey dost!

Onsuz da ürəyimdən dərdli Araz axırdı,
Sən də bu dərd çayına qəm seli qatdın, ey dost!

Yurdun dərd dalğaları hər yandan döydü səni,
Anlamaq ümmanına özünü atdın, ey dost!

Səadətin, Ayselin gözlərində dərd gülür,
Bu payız xəzanına sən belə çatdın, ey dost!

Bu qarışıq aləmdə söz bilənin dilindən,
Hər zaman doğru sözə bir dəyər güddün, ey dost!

Əbədi yaşamağa təskinlik nişanıydın,
Dünyaya axır-əzəl ümidi üzdün, ey dost!

Meyxoşun meyi qaldı, Teymurun gülü soldu,
Əlirzanın həsrəti od aldı, gördün, ey dost!

Əfrayımın, Bilalın, Ədalətin məclisi
Kədərinə yas tutdu, qəmdaşı oldun, ey dost!

Min dəfə gedəsən də, min bir dəfə gələrsən
Sevinərik, deyərik, nə yaxşı döndün, ey dost!

İnsanlıq kəhkəşanı sənin səyahət yolun,
Dostları ulduz-ulduz axtarıb buldun , ey dost!

Əbədisən sözünlə, yaşayarsan bizimlə,
Tanıyan kimsə deməz sən niyə öldün, ey dost?

Ata ət payı verən, itə də ot göstərən,
Dünyanın gərdişinə doyunca güldün, ey dost!

Zamanın küləkləri ruhuna sığal verdi,
Sən bəxtinin saçını vədəsiz yoldun, ey dost!

Sən dostluğun bağında güllərin görkəzməsi,
Nə tez gəldi payızın, belə tez soldun, ey dost!

Göy üzü buludların göz yaşı yudu məni,
Halımı gördün bəlkə, sən niyə doldun, ey dost?

Çoxları elə bilir, sevgidən ev tikilməz,
Bir dostluq sarayını sevgidən hördün, ey dost!

Deyirlər ki, bu dünya saxtalıq dünyasıdır,
Doğmalıq, səmimiyyət dövranı sürdün, ey dost!

Çörək tutmuş kimsələr dörd dövrəni alsa da,
Həyatınla bizlərdən doğrunu sordun, ey dost!

Çoxları çək-çevirə dözmədi, yana qaçdı,
Həqiqətin yanında qürurla durdun, ey dost!

Soltanlı Qəzənfərin, Məhərrəmli Qulunun,
Etimad evini sən inamla qurdun, ey dost!

Üzün gülmədi bir gün şəhidliyin bağında,
Dərdli güllər arası qəm yolu tutdun, ey dost!

Qəmlərin bazarına kimsə gəlməz dərd alsın,
Dərd verib can alana sən canı satdın, ey dost!

Çarpışırdın illətlə, vuruşurdun ölümlə,
Mərdanə ölümünlə əzabı yordun, ey dost!

Güləşdiyin dövranın çevirdin kürəyini,
Dözümün, hünərinlə sən yerə vurdun, ey dost!

Bu dolanan dəyirman çax-çaxında qalsa da,
Çarxını doğru səmtə döndərdin, burdun, ey dost!

Gedişinlə apardın, hünərimi tabımı,
Varlığım tar-mar oldu, qəddimi bükdün, ey dost!

Əli Rzanın qəlb evi səninlə zinətliydi,
Gedişinlə bu evi dağıtdın, sökdün, ey dost!

Xələflinin göz yaşı car oldu, selə döndü,
Bəlkə heç bilmədin ki, necə qan tökdün, ey dost!

Sinəmizdə dağlar var, əlçatmaz, ünyetməzdir,
Həsrətinlə üstündən təzə dağ çəkdin, ey dost!

Vətənə qurban gedən oğulların adına,
Uca mehrab önündə təzimlə çökdün, ey dost!

Yaşayarsan yaddaşda hər təzə nəsil ilə,
Düşüncəyə, fikirə saf toxum əkdin, ey dost!

Yüz evi olan var ki, bir könül evi yoxdur,
Bir könül evini sən, könüldən tikdin, ey dost.

***Əli Rza*** Xələfli
***27.09.2021***